# Dövlət Komissiyasının 2023-cü ilə dair İş Planı təsdiq edilib

Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Əhmədov tərəfindən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi məqsədilə, o cümlədən antinarkotik təbliğat, maarifləndirmə tədbirlərinin effektivliyinin artırılması və görülən işlərin davamlılığının təmin olunmasına dair Dövlət Komissiyasının 2023-cü ilə dair İş Planı təsdiq edilib və aidiyyəti üzrə icraya yönəldilib.

Bu barədə AZƏRTAC-a Dövlət Komissiyasından məlumat verilib.

Azərbaycan.- 2023.-15 mart.- S.9.